

# ABŞ Demokratiyası Haqqında Əsas Mətnlər

*Melvil İ. Urofski*

Arxiv
2025
KITABXANASINDAN

FAR CENTRE
*Siyasi və İqtisadi*
*Araşdırmalar Mərkəzi*

***Melvin I. Urofsky***
**ABŞ DEMOKRATİYASI HAQQINDA ƏSAS MƏTNLƏR**

İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi (FAR CENTRE), 2005.

**Tərtibat, redaktə və şərhlər:** Hikmət Hacızadə.

**Azərbaycan türkcəsinə çevirən:** Natiq Səfərov, Oqtay Qəbələli, Emil Bağırov, Vaqif Əlixanlı, Mirbaba Babayev, İsaxan Aşurov.

**Ədəbi redaktor:** Elman Fəttah; Etibar Əliyev.

**Rəssamı və Bilqisayar təminatı:** Ədnan Hacızadə.

**Korrektoru:** Ceyran Abbasova, Sima Əyyubova.

**Ünvan:** FAR CENTRE, R.Behbudov 3, Bakı, AZ 1000; **tel:** (99412) 931438;

**E-mail:** far@bhmonitor.baku.az; **Veb səhifəsi**: www.kitabxana.org

**KİTAB PULSUZ YAYILIR**

Humanitar elmlərin müəllimləri və tələbələri,
hüquqşünaslar, jurnalistlər və ictimai fəallar üçün.

ISBN 5-87459-228-8

Tiraj: 5215

Bu layihə, qismən, Amerika Birləşmiş Ştatlarının Səfirliyi ilə bağlanmış Qrant Sazişi vasitəsilə maliyyələşdirilmişdir. Burada ifadə edilmiş fikirlər, faktlar və nəticələr və ya məsləhətlər Müəllif(lər)ə aiddir və heç də Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin mövqeyini əks etdirmir.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASI

* * *

**BASIC READINGS IN U.S. DEMOCRACY,** ***Melvin I. Urofsky***
*FAR CENTRE (Economic & Political Research Centre, Azerbaijan);*
**Editor in Chief:** Hikmet Hadjy-zadeh

*Published With The Assistance*
*Of U.S. Embassy, Azerbaijan*

This project was funded, in part, through a Grant Agreement with the Embassy of the United States of America. The opinions, findings and conclusions or recommendations expressed herein are of the Author(s) opinion and do not necessarily reflect those of the United Stetes Department of State.

.

# *İçindəkilər*


**ÖN SÖZ** iv

**HİSSƏ** I: **İstiqlaliyyət Bəyannaməsi (1776)** 1

1. İstiqlaliyyət Bəyannaməsi (1776) 8

**HİSSƏ II: Dövlətin Qurulması** 9

2. Meyflauer Sazişi (1620) 11
3. Konnektikutun "Təməl Qanunları" (1639) 14
4. Olbani İttifaqının Planı (1754) 18
5. Şimal-qərb Dekreti (1787) 23
6. ABŞ Konstitusiyası (1787) 29
7. 10 Saylı Federalist (1787) 49
8. Məhkəmə Sistemi Haqqında Akt (1789) 55
9. Marberi Medisona Qarşı (1803) 60
10. MakKullok Merilend Ştatına Qarşı (1819) 66

**HİSSƏ III: Amerika Cəmiyyətinin İnkişafı** 78

11. Tomas Cefferson, Birinci İnaqurasiya Nitqi (1801) 79
12. Qara Tərlan, Təslim Nitqi (1832) 83
13. Aleksis de Tokvil, "Amerikada Demokratiya" (1835) 86
14. Ralf Uoldo Emerson, Özünə İnam (1841) 100
15. Doroti Diks, Massaçusets Legislaturasına Müraciət (1843) 109
16. Horas Mann, Massaçusets Ştatının "Məktəb Təhsili Üzrə Şuranın" 12 Saylı Hesabatı (1848) 115
17. Seneka Fols Bəyannaməsi (1848) 129

**HİSSƏ IV: İttifaqın Böhranı** 133

18. Köləliklə Mübarizə Cəmiyyəti, Niyyətlər Bəyannaməsi (1833) 136
19. Henri Devid Toro, Vətəndaş İtaətsizliyi (1849) 140
20. Şəxsi Azadlıq haqqında Massaçusets Aktı (1855) 161
21. Dred Skott Sendforda Qarşı (1857) 165
22. Avraam Linkoln, "Nifaqın Böldüyü Yurd" (1858) 173
23. Sallivan Ballou, Həyat Yoldaşına Məktub (1861) 178
24. Avraan Linkoln, Azadlıq İntibahnaməsi (1863) 181
25. Avraam Linkoln, Gettirsberq Müraciəti (1863) 184
26. Milliqana aid Ex Parte (1866) 186



HİKMƏT HACIZADƏNİN
Arxiv
KİTABXANASINDAN

**HİSSƏ V: Sənaye Amerikası** 193
27. Morrill Aktı (1862) 194
28. Pendlton Qanunu (1883) 197
29. Xalq Partiyasının Platforması (1896) 202
30. Müller Oreqon Ştatına Qarşı (1908) 208
31. Teodor Ruzvelt, Yeni Millətçilik (1910) 212
32. Vudro Vilson, İlk İnauqurasiya Nitqi (1913) 227

**HİSSƏ VI: Köləlikdən Azadlığa Gedən Yolda** 232
33. Plessi Fergüssona Qarşı (1896) 233
34. H.F. Stoun, "Karolin Prodakts" Şirkəti barədə Haşiyə (1938) 239
35. Harri S.Trumən, Sərəncam № 9981 (1948) 241
36. Braun Təhsil Üzrə Şuraya Qarşı (1954) 244
37. Kuper Aarona Qarşı (1958) 250
38. Martin Lüter Kinq, "Mənim Bir Arzum Var" (1963) 256
39. Mülki Hüquqlar Haqqında Akt (1964) 262
40. Lindon B. Conson, Amerikanın vədi (1965) 266
41. Kaliforniya Universitetinin İdarə Heyəti Bakkeyə Qarşı (1978) 277

**HİSSƏ VII: Özünüifadə Azadlığı** 286
42. Virciniya Ştatında Dini Azadlıq Haqqında Qanun (1786) 288
43. Abrams Birləşmiş Ştatlara Qarşı 291
44. Uitni Kaliforniya Ştatına Qarşı (1927) 297
45. Niar Minnesota Ştatına Qarşı (1931) 304
46. Qərbi Virciniya Ştatının Təhsil Şurası Barnettə Qarşı (1943) 308
47. Engel Vitaleyə Qarşı (1962) 317
48. "Nyu-York Tayms" Birləşmiş Ştatlara Qarşı (1971) 320

**HİSSƏ VIII: Dünya ilə üz-üzə** 328
49. Corc Vaşinqton, Vida Müraciəti (1796) 330
50. Monro Doktrini (1823) 340
51. Vudro Vilson, "XIV Bənd"lik Nitq (1918) 344
52. Franklin D. Ruzvelt, Şarlotsvilldəki Nitq (1940) 349
53. Atlantik Xartiyası (1941) 355
54. Xarici Yardım və İnsan Hüquqları (1976) 357
55. Cimmi Karter, İnsan Hüquqları və Xarici Siyasət (1977) 362
56. Cənubi Afrikaya Qarşı Sanksiyalar (1986) 367

**HİSSƏ IX: Soyuq Müharibə** 378
57. Marşall Planı (1947) 379
58. General Duqlas MakArturun İstefaya Göndərilməsi (1951) 383
59. Yanqstaundakı "Şit ənd Tyub" Şirkəti Soyerə Qarşı (1952) 389
60. Senator Cozef Makkartiyə Etimadsızlıq Votumu (1954) 393
61. Demokratiya və Xarici Siyasət (1990) 396

HİKMƏT XƏZİNƏNİN Arxiv 2025 ARXASINDA

**HİSSƏ X: Get-gedə Daha Çoxlarını Qəbul Edən Amerika** 406

62. Bredvell İllinoys Ştatına Qarşı (1873) 407
63. Emma Lezeres, Yeni Koloss (1883) 410
64. Yik Vo Hopkinsə Qarşı (1886) 412
65. Korematsu Birləşmiş Ştatlara Qarşı (1944) 417
66. Con Kennedi, Cənublu Baptistlərin Liderlərinə Müraciət (1960) 423
67. Gideon Ueynrayta Qarşı (1963) 429
68. Reynolds Simsə Qarşı (1964) 434
69. Qadınları Milli Müdafiə Təşkilatının Bəyannaməsi (1966) 438
70. Klayd Vorrior, Biz Azad Deyilik (1967) 444
71. Maya Ancelou, "Yeni Günün Nəbzi" (1993) 451

**HİSSƏ XI: Tükənməz Həyati Qüvvə** 456

72. Birləşmiş Ştatlar Niksona Qarşı (1974) 457
73. Prezident Debatlarından Seçmələr 464

FAR CENTRE

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

# Ön Söz

Demokratiya özünün əsas mənasında özünüidarə deməkdir. Demokratiyanın ala biləcəyi formalar müxtəlifdir və bu sıraya onlarca insanın adi bələdiyyə yığıncağından tutmuş, milyonlarla insan üçün xalq nümayəndəliyinin mükəmməl sxemləri daxildir. Demokratiya respublika və ya məhdud monarxiya forması ala bilər və xalqın səsinin eşidilməsi, onun iradəsinin həyata keçməsi üçün çoxsaylı üsullar vardır.

Amerikalılar üçün demokratiya Avraam Linkolnun dediyi kimi, yalnız "xalqın rəhbərlik etdiyi və xalqa xidmət edən xalq hakimiyyəti" deyildir, o həm də çoxluğun hakimiyyətinin məhdudlaşdırılmasını nəzərdə tutur.

Birləşmiş Ştatlar müxtəlif ölkələrdən köçüb gəlmiş mühacirlər tərəfindən təsis edilmişdi. Bu insanlar müxtəlif siyasi, sosial, dini və iqtisadi əqidələrə tapınırdılar. Və onlar vahid xalq olmaq naminə bu vaxtacan heç kəsin etmədiyini etdilər: plüralizmi məcburi yük kimi deyil, nemət kimi qəbul etdilər və elə bir mürəkkəb müdafiə sistemi yaratdılar ki, bu, çoxluğa ictimai quruluşu tiraniyaya çevirməsinə imkan verməsin. Bu ideala heç də həmişə və axıracan riayət etmək olmurdu. Çox vaxt amerikalılar başqa rəngdə dərisi olanlara və başqa mədəniyyətlərə dözümlü yanaşa bilmirdilər. Lakin diqqəti yalnız yaxşı, yaxud yalnız pis şey üzərində cəmləmək işin yalnız bir tərəfini görmək deməkdir. Və bu halda bir çox xalqların can atdığı Amerika demokratiyasının əsas ideyası nəzərdən qaçırıla bilər.

Qarşıdakı kitab amerikalıların özlərinin demokratiya axtarışları ilə bağlı olan sənədlərdən ibarətdir və burada "sənəd" anlayışı xeyli geniş başa düşülməlidir. Kitabda məhkəmə qərarları, qanunvericilik aktları, prezident fərmanları kimi bir sıra ənənəvi sənədlər öz əksini tapmışdır və bunların hər biri böyük önəm daşıyır. İstiqlaliyyət Bəyannaməsi və ABŞ Konstitusiyası kimi sənədlər isə Amerikada siyasi demokratiyanın məhək daşı sayıla bilər.

Bu kitabda həmçinin məktublar, esselər, təslim nitqləri və hətta şeirlər də dərc edilmişdir. Bütün bunlar o mənada sənəd sayıla bilər ki, Amerikanın dörd yüz il ərzində apardığı axtarışları əks etdirir. Demokratiyaya doğru hərəkət tarixində ümidsizlik məqamları da, bugünkü amerikalıların xəcalət hissilə xatırladığı qaranlıq cəhətlər də olub. Lakin bütün hallarda bu axtarışlar xalqımızın yüksək ideallarına meyllənib. Amerikanın bəzən öz azlıqlarına xor baxdığına görə kədərlənsək də, bu vəziyyətin

düzəldilməsi üzrə səyləri bizdə qürur hissi doğurmalıdır. Amerika demokratiyasının inkişafı – uzun sürən proses, çoxlarının fikrincə, əbədi davam edə biləcək hərəkətdir. Demokratiyanın son və ideal nöqtəsi yoxdur, demokratiya bu son nöqtənin axtarışından ibarətdir.

1778-ci ildə Fransanın dövlət xadimi Turqot amerikalılar haqqında yazmışdı:

*"Bu xalq bəşəriyyətin ümididir. O, hamımız üçün ideal ola bilər. O, gərək öz şəxsi təcrübəsi əsasında dünyaya sübut etsin ki, insan azad ola bilər və bu zaman dava etməyə bilər, o, tiranların və dələduzların guya cəmiyyətin mənafeyi naminə onu qandalladığı zəncirsiz ötüşə bilər. Amerika siyasi, dini və iqtisadi azadlığının nümunəsi olmalıdır. Onun məzlumlara verdiyi sığınacaq və imkanlar başqa ölkələrin hökumətlərini daha ədalətli olmağa vadar edir, dünyanın qalan hissəsi tezliklə, onların yürütdüyü siyasət barəsində xam xəyallara uymaqdan əl çəkəcəklər. Lakin bizim üçün modelə çevrilmək üçün Amerika ilk növbədə özü bu ideala çevrilməlidir, o, sizin iqtidaryönlü cızmaqaraçıların vəd etdiyi kimi, ərazi və ticarət uğrunda rəqabət aparan və köləliyi öz qanları ilə bərkidən müxtəlif qüvvə mərkəzlərinin mübarizə meydanına çevrilməlidir".*

Bu gün Turqot sağ olsaydı, o, Amerika xalqının uğur və uğursuzluqlarına heyrət edərdi. Lakin bu uğur və uğursuzluqlar Amerika tarixinin – bu kitabda təqdim edilən sənədlərin nəql etdiyi tarixin tərkib hissəsidir.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

**Melvin İ. Urovski**
Konstitusiya Tarixi Professoru,
Virciniya Birliyi Universiteti
Riçmond, Virciniya, ABŞ